# Yetmiş beşin mübarək, mənim qəzetim

Bu günlərdə işıq üzü görən "Nizami (Müasirim haqqında poema)" kitabımın səhifələrində "Ədəbiyyat və incəsənət" və sonra da "Ədəbiyyat qəzeti"ndə işlədiyim illəri məmnuniyyətlə xatırlayıram. Əsər bizimlə bir yerdə fəaliyyət göstərən və kollektivin hörmətini qazanan, "Tənqid və ədəbiyyatşünaslıq" şöbəsinə rəhbərlik edən Nizami Cəfərova müraciətlə yazılmışdır. İndi o, Nizami müəllim AMEA-nın müxbir üzvü, millət vəkili və Respublika Atatürk Mərkəzinin rəhbəridir. Qəzetdə işlədiyi vaxtlarda həm ədəbi prosesə istiqamət verir, həm də özü ədəbiyyatşünas alim kimi yetişirdi. Redaksiyada olan yaradıcılıq mühiti (bu, indi də belədir) istedadlı gənclərə qol-qanad verirdi.

O vaxt bir yerdə işlədiyimiz qələm yoldaşlarımızdan sonralar millət vəkilləri, tanınmış yazıçı, alim, şair və rəssamlar yetişmişdir.

Qəzetin də insan kimi mürəkkəb həyatı, keçdiyi yolları olur. Bizim qəzetin indi yubileyi keçirilir, tərcümeyi-halı tərcümeyi-hallara qarışıb.

Nizami Cəfərovun bu yaxınlarda "Ədəbiyyat qəzeti"nin səhifələrində köyrək və çox şirin bir dillə yazdığı geniş məqaləsini oxudum. Yadıma çox şeyləri saldı. Bu illər ərzində bir süfrədə bəzən tələsik çörək kəsdiyimizi, qəzetdə gedən bir vergülün, bir abzasın, düşən bir hərfin üstündə bir-birimizdən incidiyimizi, hər həftənin beşinci günləri keçirdiyimiz "letuçka"lardakı tənqidi çıxışlarımız və s. və i.a. gözlərimdən kino lenti kimi gəlib-keçdi. Bu illər ərzində biz ən yaxın iş yoldaşlarımızı - respublikada tanınan, nüfuz sahibi olan insanları itirmişik. Yubiley günündə onları xatırlamamaq, xatirəsini anmamaq düzgün olmazdı. Tənqidçi Nadir Cabbarovun, yazıçılardan fərman Kərimzadənin, Sabir Əhmədlinin, şair Davud Nəsibin, Kamilə Nemətin, publisist Vidadi Məmmədovun, musiqiçi - gözəl nəğmələr müəllifi Qafar Namazəliyevin, rəssam Əşrəf İbrahimovun xatirəsi biz yaşadıqca, həmişə bizə əziz olaraq qalacaqdı. Elə Qürbət kişinin özü də. Akademik Teatrda uzun müddət truppa müdiri işlədikdən sonra, bizim təklifimizi qəbul edib redaksiyamızda işə çıxdı və hamımızın hörmətini qazandı. Hamımızın ağsaqqalımız oldu.

Demək istəyirəm ki, "Ədəbiyyat qəzeti"ni belə insanlar buraxırdı - yazıçılar, rəssamlar, bəstəkarlar, memarlar ittifaqlarının üzvləri! Qəzet - kollektiv yaradıcılıq əsəriydi.

Mən redaksiyada on üç ildən bir az artıq işlədim. Onda yazıçıların nizamnaməsinə görə on ildən artıq işləmək olmazdı.

Mənim müavinlərim şair-tərcüməçi Abbas Abdulla, tənqidçi Nadir Cabbarov və şair-tərcüməçi Ayaz Vəfalı olublar. Bizim aramızda dostluq münasibətləri var idi. Məzuniyyətə gedəndə ürəyim rahat idi ki, qəzet mənsiz də yaxşı çıxacaq. Səhv etmədim. Sən sevəndə səni sevirlər. Sən inananda, sənə də inanırlar. Bu qayda ilə işləyirdik. Axı hər şeydən öncə biz qələm yoldaşlarıydıq. Sağ qalanlarla dostluq əlaqələrimiz yenə davam edir.

Yazıçılar İttifaqında sonralar Anar müəllim sədrlik edirdi. Həmişə ondan hörmət görmüşəm, indi də. Onun mənim - yəni tabeliyində olan qəzetin baş redaktoruna göndərdiyi kiçik məktublar yadımdadı. İttifaqın sədri kimi bir materialın çapını istəyirdisə, yazırdı: "Nəriman, xahiş edirəm", "Nəriman, mümkünsə", "Nəriman, məsləhət bilirsənsə", "Nəriman, özün bax" və s. Aramızda həmişə bu münasibət olmuşdu. Çalışırdım ki, redaksiyada da belə yaradıcılıq mühiti olsun. Nizami Cəfərovun redaksiyaya işə götürülməsi barədə mənim təklifimi birinci Anar müəllim müdafiə etmişdi. Onda hələ İttifaqın sədri deyildi. O vaxtkı Azərbaycan KP MK katiblərinə də mənim yanımda dəfələrlə zəng vurub, mənim yeni işim barədə təkidlə yadlarına salırdı.

Bunlar unudulmur. Yaxşılıq, xeyirxahlıq, insanlıq insan təbiətində yox, yalnız dillərdə bitirsə, bəhrəsi olmur.

"Müasirim haqqında poema"da belə misralar var:

Bizim "Ədəbiyyat və incəsənət",
bizim o yoldaşlıq, o səmimiyyət,
ortada böyüyə-kiçiyə hörmət,

Nizami, indi də düşür yadıma,
sən də unutmursan, heç əskik olma.
Şahanə buraxdıq o şah əsəri,
biz də, bizə layiq söz demək üçün.
Qaytara biləydim kaş o illəri,
təzədən bir yerdə işləmək üçün.

Ayaz müəllim yaxşı bilir ki, qəzetdə işlədiyim altı ay idi ki, qəzetin üç illik fəaliyyətini Azərbaycan KP MK-nın Bürosuna müzakirəyə çıxardılar. Büro müzakirəsi nə deməkdisə, indikilər təsəvvür edə bilməz. Yalnız Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev qəzetimizi müntəzəm oxuduğunu və yaxşı çıxdığını dedi. Müstəqil Azərbaycanın banisi və yaradıcısı siyasi rəhbərliyə gəldiyi birinci gündən "Qoy ədalət zəfər çalsın" şüarı ilə yüksək tribunaya qalxdı. Və zəfər çaldı. Axırda da üç dəfə “Mən azərbaycanlıyam və bununla da fəxr etdiyimi demişəm, indi də fəxr edirəm” - dedi. Bu qiymətli sözləri, müstəqil Azərbaycanı və öz ləyaqətli varisi cənab Prezident İlham Əliyevi bizə yadigar qoyub getdi.

Azərbaycan KP MK-kadakı Büronu bu yeni poemada da xatırlayıram.

Sonralar, ulu öndərimiz unudulmaz Heydər Əliyev Moskvada yüksək dövlət vəzifələrində işlədiyi vaxtlarda da Bakıdan alıb oxuduğu yeganə qəzetin "Ədəbiyyat və incəsənət" olduğunu deyəndə, bizim əməyimizə yüksək qiymət verildiyini gördük. Əlbəttə, ürəkdən sevinirdik və rahat nəfəs alırdıq.

Yaxşı insanlar özlərini yaxşı olduqlarından artıq göstərməyə çalışmırlar, amma sonra görürsən ki, onlar sənin düşündüyündən də artıq imişlər. Cəmiyyət belə insanların hesabına yaşayır. Onlar əslində insanları müalicə edəndilər, stresslərdən qoruyurlar.

Taleyimə minnətdaram ki, məni "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru vəzifəsinə ulu öndərin özü təyin etmişdi.

Sovet dövründə biz "Ədəbiyyat və incəsənət" qəzetini latın qrafikası ilə Türkiyə oxucuları üçün, ərəb qrafikası ilə Cənubi Azərbaycan oxucuları üçün də çap etdik. Çətin idi. Ayaz müəllimin yadındadır ki, latın və ərəb qrafikası ilə yazılan şriftləri tapa bilmirdik.

Bizi heç kəs məcbur etmirdi. Ürəyimizin səsilə bu işləri görürdük. "Ədəbiyyat və incəsənət" qəzeti bizim nəinki kollektiv əsərimiz, həm də məlum ünvanımız idi. İndi də belədir.

Yazıçılar bu qəzetin həm oxucuları, həm də müəllifləridi. Demək olar ki, bir-birilərindən bu qəzet vasitəsilə xəbər-ətər tuturlar. Başları yazılarına qarışır. Yazıçılıq sənəti belədir. Bu mənada "Ədəbiyyat qəzeti" yazıçı qəzetidi, "carçıdı", onun "səsini" biz eşidirik. Təbiidir ki, hər bir qəzet, jurnal o vaxt yaxşı olur ki, oxunur. Oxucu deyir ki, "o mənim qəzetimdi", "o mənim jurnalımdı". Amma bu həqiqətdi ki, qəzet buraxmaq bütün dövrlərdə çətindi.

Təəsssüf ki, 1937-38-ci repressiya illəri bizim "Ədəbiyyat qəzeti"ndən də yan ötməmişdi. Onun səhifələrində görkəmli sənətkarlarımıza böhtanlar atılmış, ittihamlar irəli sürülmüş və axırda neçə-neçə istedadlılar gedər-gəlməzə, uzaq Sibirə, Tayqa meşələrinə sürgün olunmuşlar.

Zamanın tufanları beləydi. Şah palıdları böyrü üstə yıxırdı. Tədqiqatçıların fikrincə, otuz il sovet ədəbiyyatında "bığ" sözü işlənməmişdi. Çünki Baş katibin bığı var idi. Düşər-düşməzi olardı. Tufanlar Kremldən əsirdi.

Yeri gəlmişkən bunu da deyim ki, bu ilin aprelində Türkiyənin Kayseri şəhərində "Ədəbiyyat qəzeti"nin müəlliflərindən böyük türk şairi Yavuz Bakilərlə görüşdüm və şad oldum. Kayseri şeir günlərində birlikdə çıxış etdik. Mənə gözəl bir şeir toplusunu da bağışladı. O ədəbi-fəlsəfi söhbətləri və yüksək mədəniyyətilə hamımızın ürəyimizi oxşayırdı. Bu gün əzizimiz Yavuz Bakiləri də yubiley günündə Bakıdan salamlayıram.

Uzun müddət birgə işlədiyimiz qəzetin baş redaktoru Ayaz Vəfalını, yaradıcı heyəti, bütün zəhmətkeş redaksiya işçilərini ürəkdən təbrik edirəm.

**Nəriman Həsənzadə xalq şairi**
**Ədəbiyyat qəzeti.- 2009.- 11 dekabr.- S.5.**